# HÜSEYNOV SADIQ DAYANDUR OĞLU



Hüseynov Sadıq 29 iyul 1961-ci ildə Ağcabədi rayonunun Xocavənd kəndində doğulmuşdur. 1978-ci ildə Xocavənd kənd orta məktəbini bitirmiş və 1980-ci ildə Xankəndi Pedaqoji İnstitutunun ibtidai metodika fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. Həmin il ordu sıralarına çağırılmışdır. Ordudan tərxis olunduqdan sonra yarımçıq qalmış təhsilini davam etdirmiş, 1987-ci ildə institutu bitirərək doğma kəndlərinə qayıtmışdır. O, vaxtilə oxuduğu məktəbdə əvvəl pioner baş dəstə rəhbəri, sonra isə müəllim işləmişdir. 1989-cu ildə DİN-nin sərəncamı ilə Şuşa rayon Daxili İşlər Şöbəsində sahə müvəkkili vəzifəsinə təyin edilmişdir. Polis leytenantı rütbəsi vardı. 1992-ci ildə ermənilər Şuşaya hücum edəndə Sadıq da polis əməkdaşları ilə birlikdə döyüşə atılmışdır. Zarıslı, Malıbəyli, Turşsu və başqa kəndlərdə onun başçılıq etdiyi dəstənin səyi nəticəsində onlarla erməni yaraqlısı məhv edilmiş, xeyli silah-sursat ələ keçirilmişdir. 1992-ci ilin 29 mart tarixində yaralanmasına baxmayaraq silahı yerə qoymamış və döyüşə atılmışdır. 1992-ci il aprelin 13-də erməni silahlı qüvvələri Şuşanı ağır raket atəşinə tutarkən yaralı yoldaşlarını və əhalini xilas edən zaman Sadıq Hüseynov qəhrəmancasına həlak olmuşdur. Ağcabədi rayonunun Xocavənd kəndində dəfn edilmişdir. Ailəli idi. Bir qızı var. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Hüseynov Sadıq Dayandur oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. 1995-ci ildə Ağcabədi rayonu Xocavənd kənd 1 saylı orta məktəbinə onun adı verilmişdir. 2019-cu ildə məktəbin önündə büstü qoyulmuşdur.